**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Latviya Respublikasının Rifah Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrində əməkdaşlıq haqqında**

# MEMORANDUM

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Latviya Respublikasının Rifah Nazirliyi, Azərbaycan Respublikası və Latviya Respublikası arasında tarixən qurulmuş sıx əlaqələrə və dostluq münasibətlərinə əsaslanaraq,

Tərəflərin əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrində qarşılıqlı faydalı əməkdaşlığın inkişafında maraqlı olduqlarını nəzərə alaraq,

ikitərəfli əməkdaşlığın möhkəmlənməsinin dövlətlərin maraqlarına, Azərbaycan Respublikasında və Latviya Respublikasında iqtisadi və sosial tərəqqinin stimullaşdırılmasına xidmət edəcəyini hesab edərək,

əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrində ikitərəfli əlaqələrin inkişafına yönəldilmiş birgə səylərin qarşılıqlı dəstəklənməsinə çalışaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər bu Memoranduma, milli qanunvericiliklərinə, Azərbaycan Respublikasının və Latviya Respublikasının iştirakçısı olduqları beynəlxalq müqavilələrə uyğun olaraq, qarşılıqlı fayda əsasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrində əməkdaşlığı möhkəmləndirir və inkişaf etdirirlər.

## Maddə 2

Tərəflər arasında əməkdaşlıq aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrində qanunvericiliyin təkmilləşdirilməsi;
- işsiz və işaxtaran vətəndaşların, sosial müdafiəyə ehtiyacı olan əhali qruplarının məşğulluq imkanlarının genişləndirilməsi üçün əmək bazarının fəal siyasətinin hazırlanması;
- insan resurslarının planlaşdırılması və inkişafı, işçi qüvvəsinin keyfiyyətinin artırılması, peşə və ixtisas standartlarının hazırlanması və tətbiqi;
- əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi;
- əmək bazarının tələblərinə uyğun, işsiz və işaxtaran vətəndaşlar üçün peşə hazırlığı sisteminin təkmilləşdirilməsi;
- əlilliyi olan şəxslərin sosial problemlərinin və məşğulluq məsələlərinin həlli, əlilliyin qiymətləndirilməsi sistemi, əlilliyi olan şəxslər üçün xüsusi peşə hazırlığı və peşəyönümü proqramlarının hazırlanması və tətbiqi, peşə reabilitasiyasının təşkili;
- gənclərin məşğulluğunun artırılması;
- sosial-əmək münasibətləri, o cümlədən əməyin mühafizəsi və təftişi məsələləri, əmək mübahisələrinin həlli yolları;
- sosial müdafiə və məşğulluq sahələrində siyasət;
- yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsi, minimum yaşayış həddi göstəricisinin hesablanması metodologiyasının təkmilləşdirilməsi, əhalinin sosial müdafiəsi sisteminin, o cümlədən ünvanlı sosial yardım mexanizmlərinin inkişafı;
- sosial xidmət müəssisələri tərəfindən əhalinin müxtəlif təbəqələrinə sosial xidmətlərin göstərilməsi;
- sosial tərəfdaşlıq sisteminin inkişafı;

- beynəlxalq təşkilatların və maraqlı dövlət orqanlarının iştirakı ilə əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrində birgə layihələrin hazırlanması və həyata keçirilməsi;

- Tərəflərin dövlətlərində əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsinə müvafiq ümumavropa standartlarının tətbiq olunmasına yönəldilmiş tədbirlər;

- Tərəflərin qarşılıqlı razılığı əsasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrinə aid digər məsələlər.

**Maddə 3**

Tərəflər əməkdaşlığı aşağıdakı formalarda həyata keçirirlər;

- əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrində qanunvericiliyin və normativ sənədlərin mübadiləsi;

- sosial-əmək inkişafı məsələləri üzrə analitik-informasiya materiallarının və elmi tədqiqatların nəticələrinin mübadiləsi;

- Tərəflərin ekspertləri arasında məsləhətləşmələr;

- Tərəflərin dövlətlərinin ərazilərində keçirilən konfranslarda, seminarlarda və digər beynəlxalq tədbirlərdə Tərəflərin ekspertlərinin, mütəxəssislərinin iştirakı;

- Tərəflərin mütəxəssislərinin sosial-əmək sahəsində ixtisaslarının artırılması və iş təcrübəsinin mübadiləsi məqsədi ilə ixtisasartırma və təlim səfərlərinin təşkil olunması;

- beynəlxalq forumlarda əmək, məşğulluq və əhalinin sosial müdafiəsi məsələləri üzrə qarşılıqlı fəaliyyət və dəstək.

**Maddə 4**

Bu Memorandumun müddəalarının həyata keçirilməsi məqsədi ilə Tərəflər ictimai əsaslarla fəaliyyət göstərən birgə İşçi Qrupu yaradırlar.

İşçi Qrup, zərurət yaranarsa, növbə ilə hər iki Tərəfin dövlətinin ərazisində bu Memorandumun predmeti olan məsələlərin həlli üçün görüşlər keçirir.

İşçi Qrupun iclaslarının gündəliyi, keçirilmə yeri və tarixi Tərəflər arasında əvvəlcədən razılaşdırılır.

**Maddə 5**

Bu Memorandumda nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi Tərəflərin hər il bu məqsədlər üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitləri daxilində həyata keçirilir.

**Maddə 6**

Tərəflər bu Memorandum çərçivəsində həyata keçirilən layihələrdə iştirak etmək üçün digər dövlət qurumlarını və ya qeyri-hökumət təşkilatlarını dəvət edə bilərlər.

**Maddə 7**

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Memoranduma əlavə və ya dəyişikliklər edilə bilər. Həmin əlavə və dəyişikliklər bu Memorandumun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilir və 9-cu maddənin müddəalarına uyğun olaraq qüvvəyə minir.

**Maddə 8**

Bu Memorandumun həyata keçirilməsi ilə əlaqədar yaranan bütün mübahisələr və fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Bu Memorandum, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Memorandum 3 (üç) il müddətinə bağlanılır və Tərəflərdən heç biri bu Memorandumun qüvvəsinin başa çatmasına ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə bildiriş göndərmədiyi təqdirdə, onun qüvvəsi növbəti üçillik müddətlərə uzadılacaqdır.

Bu Memorandum Bakı şəhərində 3 dekabr 2015-ci il tarixində, hər biri Azərbaycan, latış və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır. Hər iki mətn autentikdir. Bu Memorandumun müddəalarının təfsiri ilə bağlı fikir ayrılıqları yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə ediləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br>adından**<br>*(imza)* | **Latviya Respublikasının<br>Rifah Nazirliyi<br>adından**<br>*(imza)* |